Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

4 iyul 2014-cü il
№ 21-22 (8935)
Qiymətі 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

## "Dənizçi günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hər il iyun ayının 25-i "Dənizçi günü" peşə bayramı kimi qeyd edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 iyun 2014-cü il*

## Bir qrup dəniz nəqliyyatı işçisinə «Əməkdar mühəndis» fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

**Kazımov Soltan Ağaqulu oğlu**
**Orucov Şahid Nəcəb oğlu**
**Səfərov Balakişi Məmmədağa oğlu.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 iyun 2014-cü il*

## Bir qrup dəniz nəqliyyatı işçisinin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilsinlər:

**Abbasov Rəşid İsaxan oğlu**
**Abdullayev Samir Ramiz oğlu**
**Atayev Sabir Məmmədzakir oğlu**
**Cavadov İlham Sabir oğlu**
**Dadaşov Nadir Dərya oğlu**
**Əliyev Seyfulla Güləli oğlu**
**Əliyev Siyasət Abdul oğlu**
**Əsədov Adışirin Zeynalabdin oğlu**
**Həsənov Şəmistan Hüseyn oğlu**
**İbrahimov Kamran Məhərrəm oğlu**
**Məmmədov Xotkar Əliyulla oğlu**
**Novruzov Şamil Nəcəf oğlu**
**Nurəlibəyova Təranə Fərrux qızı**
**Orucov Rəqub Cəfər oğlu**
**Səfərov Niyaz Ağabala oğlu**
**Şərifov Zahid Ziyatxan oğlu**
**Tapdıqov Tapdıq Mirsəməd oğlu**
**Trişev Nikolay İvanoviç.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 iyun 2014-cü il*

# DEYİN, NECƏ SEVİNMƏYƏK...

## *DƏNİZÇİLƏR PEŞƏ BAYRAMLARINI TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD ETDİLƏR*









İyunun 25-də Dənizçilərin Mədəniyyət və Texnika Evində özgə bir izdiham, özgə bir qələbəlik vardı. Üz-gözlərdəki sevinc də özgə bir sevinc idi. Qürurdan, iftixardan, fəxrdən doğan sevinc! Fırtınalar qoynunda müntəzəm səfərlərə çıxan dənizçilərin, ləngərli gəmilərin ömrünə ömür calayan gəmi təmirçilərinin, hər cür yükləri sürətli üsullarla aşıran limançıların... şərəfli peşə sahibləri olduqları üçün keçirdikləri qanuni iftixar hissini ilk baxışdan da hiss etmək çətin deyildi.

Bütün ömrünü dəniz nəqliyyatının inkişafına həsr edənlərin də, sulara qoynunda ilk titrək qədəmlərini atanların da, bü günün tələbələri - sabahın dənizçilərinin də sevinməyə haqqı vardı. Axı o gün "Dənizçi günü", deməli hər birinin bayramı idi. Bu sevinci isə onlara bir neçə gün əvvəl - "Dənizçi günü" peşə bayramının təsis edilməsi ilə bağlı iyunun 19-da imzaladığı Sərəncamla möhtərəm prezidentimiz bağışlamışdı.

"Dənizçi günü"nə həsr olunmuş təntənəli yığıncaqdan əvvəl Azərbaycan Dövlət Dəniz Administrasiyasının, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının kollektivləri Fəxri Xiyabana gələrək ümummilli liderimiz, müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı önünə əklil və gül dəstələri qoydular.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anıldı, məzarı üstünə tər çiçəklər düzüldü. Sonra Şəhidlər Xiyabanına gələn dəniz nəqliyyatı işçiləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının, o cümlədən dənizçilərin xatirəsini ehtiramla yad etdilər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlandı. Sonra "Dənizçi günü" peşə bayramı ilə əlaqədar dəniz nəqliyyatı işçilərinin bir qrupunun - 18 nəfərin "Tərəqqi" medalı ilə təltif olunması, 3 nəfərin "Əməkdar mühəndis" fəxri adına layiq görülməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları oxundu.

Peşə bayramı münasibətilə dənizçiləri təbrik edən Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov Ulu öndər Heydər Əliyevin dəniz nəqliyyatının inkişafı üçün gördüyü əvəzsiz işlərdən, fədakar dənizçilərə göstərdiyi diqqət və qayğıdan söz açdı, bu siyasətin hazırda dövlətimizin başçısı İlham Əliyev tərəfindən davam etdirilməsini məmnunluqla dilə gətirdi. Natiq qeyd etdi ki, Azərbaycan Respublikası 1995-ci ildən Beynəlxalq Dəniz Təşkilatının üzvüdür və indiyədək 20-dən çox beynəlxalq konvensiyaya qoşulub.

Q. Qurbanov çıxışının sonunda peşə bayramlarını ilk dəfə birgə qeyd edən Azərbaycan dənizçilərinin ölkə rəhbəri tərəfindən qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə etdi.

Sonra söz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə verildi.

"Dənizçi günü" peşə bayramının təsis edilməsi və bir qrup dəniz nəqliyyatı işçisinin təltif edilməsi barədə sərən-

*(Davamı 3-cü səhifədə)*

# "DƏNİZÇİ GÜNÜ"NƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YIĞINCAQDA CƏMİYYƏTİN SƏDRİ RAUF VƏLİYEVİN ÇIXIŞI

Hörmətli yığıncaq iştirakçıları!

Hörmətli dənizçilər!

Bu gün biz tarixi bir gün yaşayırıq. Birləşmiş dənizçilik cəmiyyəti kimi, ilk dəfə rəsmi olaraq, "Dənizçi günü"nü, peşə bayramını qeyd edirik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 iyun tarixli Sərəncamı ilə ölkəmizdə "Dənizçi günü" peşə bayramı təsis edilmişdir. Bu, bütün Azərbaycan dənizçilərinin gərgin, lakin şərəfli əməyinə dövlət başçımızın verdiyi çox yüksək qiymətdir.

Möhtərəm Prezidentimizin dəniz nəqliyyatına daimi diqqət və qayğısının daha bir təzahürü bir qədər əvvəl burada səslənən sərəncamlardır. Əməkdə fərqlənən işçilərə fəxri adların verilməsi, onların "Tərəqqi" medalına layiq görülməsi hər birimizin qəlbini iftixar və minnətdarlıq hissləri ilə doldurur. Biz ölkə rəhbərinə dərin təşəkkürümüzü bildiririk.

Əziz dənizçilər!

Bu gün tam əminliklə deyə bilərik ki, Möhtərəm Prezidentimizin rəhbərliyi altında Azərbaycan dünyada ən sürətlə inkişaf edən dövlətlər sırasındadır. Regionun aparıcı dövlətinə çevrilən Azərbaycan Respublikasının iştirakı olmadan, regionda heç bir iri layihə həyata keçirilə bilməz. Artıq Azərbaycan, bu günün ən aktual məsələlərindən biri olan, Avropanın enerji təhlükəsizliyi məsələsində söz sahibidir və bizim ölkənin bu sahədə rolu getdikcə artmaqdadır. Fərəhli haldır ki, Azərbaycanın inkişafı təkcə Bakıda deyil, bütün rayonlarda, kəndlərdə hiss olunur. Və bu gün biz qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycanımızın sürətli inkişafında bizim dənizçilərin də xüsusi əməyi vardır.

Ölkəmiz tarixən Xəzər hövzəsində dənizçiliyin mərkəzi, Bakı ən böyük və əhəmiyyətli liman şəhəri olub. Xəzərdə dənizçilik sahəsinin ən inkişaf etdiyi ölkə kimi, Azərbaycan uzun illər 2 müxtəlif sahədə fəaliyyət göstərən gəmiçilik şirkətinə, gəmi təmiri zavodlarına, liman və digər aidiyyatı infrastruktura malik olubdur. Azərbaycanın keçmişində və bu günündə xüsusi yer tutan Xəzər Dəniz Gəmiçiliyi və Xəzər Dəniz Neft Donanması ayrı-ayrılıqda kifayət qədər iri gəmiçilik təşkilatları kimi fəaliyyət göstəriblər.

Hər iki donanma böyük və zəngin tarixə malikdir. Ötən il Xəzər Dəniz Gəmiçiliyi 155 yaşını qeyd edib, Xəzər Dəniz Neft Donanması isə bu il özünün 65 illiyini qeyd edəcəkdir. Bu iki dənizçilik təşkilatı və onun fədakar dənizçiləri Azərbaycanın müstəqillik qazanması istiqamətində gedən proseslərdə yaxından iştirak edərək, xalqımızın ən ağır günlərində həmişə bir yerdə, mübarizənin ön sıralarında olublar. 1990-cı ilin 20 yanvar hadisələrində dənizçilərimiz hansı donanmada çalışmalarından asılı olmayaraq, vətəndaşlıq şücaəti göstəriblər, imperiya qüvvələrinə qarşı birlikdə mübarizə aparıblar və bütün dünyadan təcrid olunmuş Azərbaycanda baş verən faciə barədə məlumatı ilk olaraq dünya ictimaiyyətinə ötürüblər.

Eyni zamanda, müstəqilliyimizin ilk illərində, iqtisadiyyatımızın ən çətin günlərində, gəmiçilik şirkətlərimiz ölkəmizin həyatında xüsusi rol oynayıblar. Belə ki, 90-cı illərin əvvəllərində və respublikamız müstəqillik qazandıqdan sonra beynəlxalq yükdaşımaların həyata keçirilməsində, Azəri-Çıraq-Günəşli, Şahdəniz, Bahar, Ümid və digər bu kimi nəhəng və perspektivli neft-qaz yataqlarının mənimsənilməsində fəal iştirak edən dənizçilərimiz dövlətçiliyimizin möhkəmlənməsinə, iqtisadiyyatımızın gücləndirilməsinə əvəzsiz töhfələr veriblər. Bu tarixi yolda əmək qələbələri də, çətinliklər də çox olub.



Müstəqilliyimizin ilk illərində bütün ölkə iqtisadiyyatında müşahidə edilən tənəzzül, qonşu respublikalarda gəmiçilik və donanmaların ardıcıl olaraq dağılması prosesi hər birimizin yaxşı yadındadır. Belə çətin bir dövrdə yalnız Azərbaycanda mənfi proseslərin qarşısını almaq mümkün oldu. Bu, Ümummilli Liderimiz Heydər Əliyevin tarixi xidməti idi. Bütün dənizçilər dəniz nəqliyyatının qorunub saxlanması, sonradan daha da inkişaf etdirilməsi üçün məhz Ulu Öndərə minnətdardırlar. Heydər Əliyev hələ sovet dövründə Azərbaycana rəhbərlik edəndə və Moskvada işləyəndə dəniz nəqliyyatına daim xüsusi diqqət və qayğı göstərib, donanmalarımızın yenilənməsi prosesinin əsasını qoyub, sonradan isə onların dağılmasının qarşısının alınmasında və bu günümüzə gəlib çatmasında müstəsna rol oynayıb. Həmin tərəqqi strategiyası bu gün Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən bacarıqla davam etdirilir. Həm nəqliyyat, həm də neft donanmamız hazırda vahid orqanizm kimi bir amala - Azərbaycanın inkişafına xidmət edir.

Möhtərəm Prezidentimiz yeni yaradılmış Cəmiyyət qarşısında yerli və beynəlxalq daşımaların səmərəliliyinin artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi kimi, eləcə də "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəqliyyat səhəsində nəzərdə tutulmuş digər vacib vəzifələr müəyyən etmişdir.

Əsas hədəflərimiz ilkin mərhələdə Xəzər dənizi hövzəsində, daha sonra isə Xəzərdən kənarda rəqabətədavamlı və beynəlxalq standartlara uyğun daşıma xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyəti təmin etmək, Azərbaycanın beynəlxalq əhəmiyyətli nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinə xidmət etmək, gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların formalaşmasına nail olmaqdır.

Biz ətraflı inkişaf strategiyasının hazırlanmasını, yeni kadr siyasətinin tətbiqini, idarəetmə strukturunun təkmilləşdirilməsini, idarəetmə mexanizmlərinin effektivliyinin artırılmasını, maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdırılmasını və beynəlxalq standartlara uyğunlaşdırılmasını, donanmaların yeniləndirilməsini, müştərilər arasında etibarlı tərəfdaş imicinin yaradılmasını qarşıdakı məqsədlərə çatmaq üçün əsas vasitələr kimi qiymətləndiririk.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tam şəffaflıq və tam nəzarət prinsiplərinə əməl olunmaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqinə başlamış, müasir SAP ERP proqramı üzrə modulların tətbiqini təmin etmişdir. Bu istiqamətdə işlər beynəlxalq standartlara tam uyğunlaşana qədər davam etdiriləcəkdir.

Hörmətli yığıncaq iştirakçıları!

Bu gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti nəqliyyat kompleksində önəmli yer tutur və beynəlxalq yükdaşıma bazarında, xüsusilə Avrasiya nəqliyyat dəhlizində aparıcı nəqliyyat müəssisəsi kimi fəaliyyət göstərir.

Bununla yanaşı, Cəmiyyətə məxsus gəmilər üçün Xəzər regionunda sabit yük bazasının formalaşması bir sıra ciddi problemlərlə üzləşir. Belə ki, Xəzər dənizində fəaliyyət göstərən gəmiçilik şirkətləri arasında rəqabət getdikcə kəskinləşir. Hazırda Xəzər dənizində Cəmiyyətin donanmasından başqa, Türkmənistan, Qazaxıstan, İran və Rusiyanın gəmiçilik şirkətləri fəaliyyət göstərərək, öz donanmalarının potensialını daim artırırlar. Cəmiyyətin qarşısında duran ən başlıca vəzifələrdən biri də bu rəqabətə davam gətirmək və yükdaşımalar bazarında öz mövqeyini qoruyub saxlamaqdır.

Regionda nəhəng beynəlxalq layihələrin gerçəkləşdirilməsi, xüsusilə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Bakı-Tbilisi-Qars dəmir yolunun tezliklə istismara verilməsi ilə əlaqədar yük həcminin və bu yüklərin daşınması üçün müxtəlif təyinatlı gəmilərə olan tələbatın daha da artacağı gözlənilir. Tələbatın çoxaldığını və gəmilərimizin orta yaş həddinin 29 il olduğunu nəzərə alaraq, donanmanın yenilənməsi prosesinin davam etdirilməsi zəruridir. Xəzər dənizində rəqabət günbəgün sərtləşdiyindən, nəqliyyat donanmasının gücləndirilməsi üçün yeni, müasir gəmilərin alınması daim diqqət mərkəzindədir. 2012-ci ildə dövlət büdcəsindən 1 ədəd üzən dokun və 1 ədəd yedək gəmisinin alınmasına 25,6 milyon manat vəsait ayrılmışdır. 2013-cü ilin sentyabrında yedək gəmisi artıq alınmış və istismara verilmişdir. 2014-cü ildə isə yeni üzən dokun istismara verilməsi gözlənilir. Həmçinin 2013-cü ildə Bakı Gəmiqayırma Zavodu tərəfindən "Socar-1" gəmisi tikilərək istismara verilmişdir. Bu il aprelin 25-də Bakı Gəmiqayırma Zavodu ilə 26 milyon 550 min dollar dəyərində 3 ədəd 80 nəfərlik sərnişin gəmisinin tikintisi ilə bağlı müqavilə imzalanmışdır.

Bildiyiniz kimi, dənizdə neft-qaz hasilatı ilə bağlı müxtəlif təyinatlı xidmətlərin həyata keçirilməsi Xəzər Dəniz Neft Donanmasının iştirakı ilə aparılır. Həmin işlərə seysmik və geoloji axtarış, dəniz özüllərinin daşınması və estakadaların tikilməsi, istismar dövründə təmir işlərinin təmin olunması, dəniz obyektlərinin yanğından mühafizəsi, neft-qaz kəmərlərinin çəkilməsi, dəniz neftçilərinin iş yerlərinə çatdırılması, yanacaq-sürtkü materiallarının, kimyəvi reagentlərin daşınması, sualtı-texniki, qəza-xilasetmə işlərini və sairi aid etmək olar.

Xəzər Dəniz Neft Donanması müvafiq xidmətlər göstərmək üçün Dövlət Neft Şirkətinin müxtəlif idarə və törəmə müəssisələri, Dövlət Sərhəd Xidməti, Bahar Enerji Əməliyyat Şirkəti, Baku Steel Company, Fövqəladə Hallar Nazirliyi, Bakı Gəmiqayırma Zavodu, habelə BP, Saipem, Transmarine, Arizona, BUE-Caspian, CMS və sair şirkətlərlə müqavilələr əsasında işləyir, sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirməyə çalışır.

Əziz dənizçilər!

Qarşımızda duran vəzifələrin icrası bizim hər birimizin işindən asılıdır.

Əlbəttə, görüləsi işlərimiz çoxdur. Məqsədimiz isə birdir. Biz, çıxışımın əvvəlində qeyd etdiyim kimi, beynəlxalq standartlara cavab verən, gəlirlə işləyən, rəqabətədavamlı, nüfuzlu bir gəmiçilik şirkəti qurmalıyıq.

Dənizçi peşəsi həmişə nüfuzlu peşə sayılıb. Təəssüf ki, son illərdə bu peşənin prestiji, dənizçilərin sosial rifahı günün tələbləri səviyyəsində olmayıb. Biz dənizçinin nüfuzunu özünə qaytarmalı, bu istiqamətdə təcrübəli veteranlarımızın əmək ənənələrindən bəhrələnməli, yeni, gənc, savadlı dənizçi nəsli yetişdirməliyik. Bizim gələcəyimiz olan tələbələrimizin yüksək bilikli mütəxəssis kimi hazırlanması üçün əlimizdən gələni etməliyik. Mən veteranlarımızı, gənclərimizi, bütün kollektivimizi, dəniz nəqliyyatı işçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik edir, sizin hər birinizə uğurlar diləyir, ən xoş arzularımı bildirirəm.

Bayramınız mübarək olsun!

# DEYİN, NECƏ SEVİNMƏYƏK...

## DƏNİZÇİLƏR PEŞƏ BAYRAMLARINI TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD ETDİLƏR

*(Əvvəli 1-ci səhifədə)*

camlarını möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən bütün ölkə dənizçilərinin fədakar və şərəfli əməyinə verilən çox yüksək qiymət kimi dəyərləndirən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dənizçilərin bu etimad və qayğıya əməli işləri ilə cavab verəcəklərinə inamını bildirdi.

Azərbaycanda gəmiçiliyin tarixinin çox qədim olduğunu, Xəzər Dəniz Gəmiçiliyi və Xəzər Dəniz Neft Donanmasının uzun illər ayrı-ayrılıqda iri gəmiçilik müəssisələri kimi fəaliyyət göstərdiklərini, Prezident İlham Əliyevin 2013-cü il 22 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradıldığını diqqətə çatdıran R. Vəliyev kollektivin qarşısında duran prioritet vəzifələrdən söz açdı. Yerli və beynəlxalq daşımaların səmərəliliyinin artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi zəruriyyətindən danışarkən dedi: "Əsas hədəflərimiz ilkin mərhələdə Xəzərdə, daha sonra Xəzərdən kənarda rəqabətədavamlı və beynəlxalq standartlara uyğun daşıma xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyətini təmin etmək, Azərbaycanın beynəlxalq əhəmiyyətli nəqliyyat və logistika mərkəzinə çevrilməsinə əhəmiyyətli töhfə vermək, gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların formalaşmasına nail olmaqdır. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tam şəffaflıq və tam nəzarət prinsiplərinə əməl olunmaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqinə başlamış, müasir SAP ERP proqramı üzrə modulların tətbiqini təmin etmişdir. Bu istiqamətdə işlər gəmiçilik beynəlxalq standartlara tam uyğunlaşanadək davam etdiriləcəkdir."



R. Vəliyev vurğuladı ki, regionda nəhəng beynəlxalq layihələrin gerçəkləşdirilməsi, xüsusilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Bakı-Tbilisi-Qars dəmir yolunun tezliklə istismara verilməsi ilə yüklərin həcmi və təbii ki, bu yüklərin daşınması üçün müxtəlif təyinatlı gəmilərə tələbat da artacaqdır. Bu baxımdan nəqliyyat donanmasının gücləndirilməsi üçün yeni, müasir gəmilərin alınması diqqət mərkəzində saxlanılır.

Cəmiyyətin sədri çıxışının sonunda dənizçiləri bir daha peşə bayramları münasibətilə təbrik etdi, onlara çətin və şərəfli fəaliyyətlərində yeni-yeni uğurlar dilədi.

Limançıların da "Dənizçi günü" peşə bayramının təsis edilməsini sevinclə qarşıladıqlarını bildirən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktoru Elçin Mirzəyev bayramı birgə qeyd etməyin əhəmiyyətinə toxundu.

"Rusiya Dəniz Registri Azərbaycanda" Qapalı Səhmdar Cəmiyyəti İdarə heyətinin sədri Şaban Quliyev bütün dənizçiləri bayram münasibətilə təbrik etdi, ölkəmizin iqtisadi tərəqqisi naminə fəaliyyətlərində onlara yeni-yeni müvəffəqiyyətlər arzuladı.

Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Səməd Allahverdiyev çıxışında dənizçilərin hüquq və qanuni mənafelərinin müdafiəsi istiqamətində bütün işlərin "Həmkarlar İttifaqı haqqında" Qanuna, Azərbaycan Respublikasının Əmək



Məcəlləsinin tələblərinə uyğun həyata keçirildiyini bildirdi. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi tərəfindən işçilərin rifah halının, sağlamlığının, təhlükəsiz iş şəraitinin yaxşılaşdırılmasına zəmin yaradan əmr-qərarların hazırlanıb imzalandığını diqqətə çatdırdı.

Sonra səmərəli əmək fəaliyyətlərinə görə fərqlənən bir qrup dənizçiyə "Donanmanın fəxri işçisi" döş nişanı və Fəxri fərmanlar təqdim olundu.

Sonda yığıncaq iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

**Rasif TAHİROV**

## TƏBRİK EDİRİK!

### SƏMƏRƏLİ ƏMƏK FƏALİYYƏTLƏRİNƏ GÖRƏ VƏ "DƏNİZÇİ GÜNÜ" PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ AŞAĞIDAKI ŞƏXSLƏR AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ RƏİSİ QÜDRƏT QURBANOVUN ƏMRİ İLƏ "DONANMANIN FƏXRI İŞÇİSİ" DÖŞ NİŞANI İLƏ TƏLTİF EDİLMİŞLƏR

**Həmidov Elçin Fiqur oğlu** - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti aparatı Əsaslı tikinti şöbəsinin rəisi ;

**Quliyev Rauf Rəhman oğlu** - "O. Vəliyev" gəmisinin kapitanı;

**Məlikov Aleksandr Nacamoviç** - "Atlet-5" gəmisinin baş mexaniki;

**Sadıqov İlyas Əlixan oğlu** - "Azərbaycan" gəmisinin kapitanı;

**Sadıqov Vüqar Böyükağa oğlu** - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin köməkçisi;

**Tağıyev Seymur Tağı oğlu** - "Bəstəkar Fikrət Əmirov" gəmisinin motorçusu

## Dənizlərə gözəllik verən gəmilərimiz





## TƏBRİK EDİRİK!

**Səmərəli əmək fəaliyyətlərinə görə və "Dənizçi günü" peşə bayramı münasibətilə aşağıdakı şəxslər Cəmiyyətin sədri Rauf Vəliyevin əmri ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Fəxri fərmanı ilə təltif edilmişlər:**

Abdullayev Anar Rüfət oğlu - "AXDG" QSC aparatı Satınalmalar şöbəsinin mühəndisi;

Abdullayev Elşad İslam oğlu - "AXDG" QSC aparatı İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi;

Allahverdiyeva Validə Səlimovna - Sosial İnkişaf İdarəsinin Mənzil-Kommunal Təsərrüfatında qrup rəhbəri;

Atakişiyeva Dilarə Qorxmaz qızı - "AXDG" QSC aparatı İşlər idarəsi rəisinin müavini;

Bayramov İlham Kərim oğlu - "Cabbar Həşimov" gəmisinin ikinci mexaniki

Əbdülrəhmanov Qədir Ağa oğlu - Azərbaycan Dövlət Dəniz Akademiyası "Gəmi avtomatikası" kafedrasının müdiri;

Əliyev Rüfət Xanağa oğlu - "Teymur Əhmədov" gəmisinin bosmanı;

Əliyev Samir Sabir oğlu - İstehsalat Xidmətləri İdarəsində elektrik qaynaqçısı;

Əzizov Pənah Qüdrət oğlu - "Rəşid Behbudov" gəmisinin kapitanı;

Fatyanova Svetlana Aleksandrovna - Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu Layihə-axtarış şöbəsinin aparıcı mühəndisi;

Həsənov İmaməli Şükür oğlu - "AXDG" QSC aparatı Mühasibat uçotu və hesabatı şöbəsinin rəisi;

Həsənov Münasib Sabir oğlu - Mərkəzi Dənizçilər Xəstəxanasının həkim anestezioloq-reanimatoloqu;

İmanov Xanlar Bayraməli oğlu - Xəzər Dəniz Neft Donanmasında metrologiya üzrə mühəndis

İsmayılzadə Oqtay Kamal oğlu - "AXDG" QSC aparatı Sosial inkişaf şöbəsinin mühəndisi;

Qasımov Kamil Qasım oğlu - "Zığ" Gəmi təmiri zavodunun çilingəri

Qurbanov Fuad Hacı oğlu - "Bibiheybət" Gəmi Təmiri Zavodunun baş mühəndisi;

Mahmudov İlyas Mahmud oğlu - İstehsalat Xidmətləri İdarəsində yuyucu;

Mamedov Oktay Böyükxan oğlu - "Koroğlu" gəmisinin böyük mexaniki;

Rəhimov Əli Qurban oğlu - "Bibiheybət" Gəmi Təmiri Zavodunun gəmi təmiri çilingəri;

Spasyuk Ruslan Dmitriyeviç - "Zığ" Gəmi Təmiri Zavodunun elektrik quraşdırıcısı;

Şahgəldiyev Adil Ağayədin oğlu - "General Əsədov" gəmisinin baş mexaniki;

Turabov Qədir Turab oğlu - "Bibiheybət" Gəmi Təmiri Zavodunun gəmi gövdə təmirçisi;

Yunusov Abdulqadir Faiq oğlu - İstehsalat Xidmətləri İdarəsinin mühəndisi

## SEVƏR CƏSURLARI, QOÇAĞI DƏNİZ

*("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin dənizçilərinə)*

Bir üzü mülayim, bir üzü sərtdi,
Açmaz hər yetənə qucağın dəniz.
İgidlik, sədaqət - birinci şərti,
Sevər cəsurları, qoçağı dəniz.

Çəkir səfər boyu dəniz sınağa,
Dənizçi hər səfər imtahan verir.
Sınaqdan uğurla keçənlərinsə
Dənizin gözləri üstədi yeri.

Dənizdə dalğalar dağa dönəndə,
Sahildə dağlar da ehtiyat edər.
Çəkilməz gəmilər zərrəcə geri,
Gəmilər "dağlar"ın üstünə gedər.

Heç nə əsirgəməz, verər nəyi var,
Həmişə açıqdı əli dənizin.
Sevgidən savayı kimdən nə istər?
Onunçün uzundu dili dənizin.

Gəmilər səfərə çıxanda baxın,
Sevinci köksünə sığmır dənizin.
Gəmisiz, səfərsiz elə darıxır,
Bəzən səsi belə çıxmır dənizin.

**Rasif İMANOĞLU**

## ƏVVƏLCƏ XƏZƏR DƏNİZİNDƏ MÖVQEYİMİZ MÖHKƏMLƏNDİRİLƏCƏK

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" ndə yeni struktur islahatları aparacaq, Səhmdar Cəmiyyəti beynəlxalq standartlara cavab verən, səmərəli fəaliyyət göstərən müasir kommersiya strukturuna çevirəcəyik".**

Bu sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev 25 iyun - "Dənizçi günü" peşə bayramı münasibətilə keçirilən təntənəli tədbirdə jurnalistlərə müsahibəsində demişdir.

Azərbaycanda gəmiçiliyin çox böyük və zəngin tarixə malik olduğunu söyləyən Səhmdar Cəmiyyətin sədri qeyd etmişdir ki, qarşıda çox böyük hədəflər var. "Bu hədəflərə çatmaq üçün artıq müəyyən işlər görülməkdədir. Çalışacağıq ki, Xəzər dənizindəki mövqeyimizi möhkəmləndirək. Növbəti mərhələdə isə Xəzərdən kənarda digər xarici şirkətlərlə bərabər səviyyədə, rəqabətə davamlı şəkildə fəaliyyət göstərək. Bunun üçün dövlət tərəfindən bizə tam dəstək göstərilir, "- deyə R. Vəliyev vurğulamışdır.

Ötən ilin sentyabrında Azərbaycanda gəmiqayırma zavodunun istismara verildiyini bildirən Səhmdar Cəmiyyətin sədri bu müəssisədə donanmanın daha müasir gəmilərlə təchiz olunması üçün müəyyən proqramların hazırlandığını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Ələtdə yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi, eləcə də İpək Yolunda tranzit yükdaşımaların həcminin artması "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti üçün münbit şərait yaradacaqdır.

R. Vəliyev kollektivin bu hədəflərə çatmaq üçün var gücü ilə çalışacağına, onlara göstərilən yüksək etimadı layiqincə doğruldacağına əminliyini ifadə etmişdir.

## SAHƏNİN İNKİŞAFINA BÖYÜK DİQQƏT YETİRİLİR

### Qüdrət Qurbanov: *"Ölkə özünü yerli gəmilərlə təmin edəcək"*

**"2014-cü ilin sonunadək Azərbaycanda yeni Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi çərçivəsində bərə terminalı istismara veriləcək." Bunu Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov dənizçilərin peşə bayramına həsr edilmiş tədbirdə deyib.**

Onun sözlərinə görə, bu, öz növbəsində Xəzərdə tranzit yüklərin cəlb edilməsinə və dəniz nəqliyyatının inkişafına öz töhfəsini verəcək: "Azərbaycanda müasir standartlara və tələblərə uyğun yeni gəmiqayırma zavodunun və limanın tikintisi bu sahənin inkişafına göstərilən böyük önəmdən xəbər verir." Qeyd edək ki, yeni liman Ələt qəsəbəsində tikilir.

Qüdrət Qurbanov həmçinin bildirib ki, Azərbaycanda yeni gəmiqayırma zavodunda müxtəlif növ gəmilərin tikintisi nəzərdə tutulub ki, bu da ölkənin müvafiq strukturlarının gəmilərə olan tələbatını qarşılamağa imkan verəcək.

Q. Qurbanov qeyd edib ki, bu da öz növbəsində yükdaşıma sahəsinə və ümumilikdə tranzit potensialının inkişafına böyük töhfə verəcək: "Tranzit yüklərin boşaldılıb-daşınmasında bərə terminalı vacib rol oynayacaq. Bərə terminalının Ələt qəsəbəsində yeni Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi çərçivəsində istismara verilməsi planlaşdırılır".

## *Dünya Bankı:* "Azərbaycan orta gəlirli ölkələr sırasına daxil olub"

**Azərbaycan Milli Elmlər Akademiyasında Dünya Bankının baş iqtisadçısı Mona Prasadla görüş keçirilib. AMEA-nın mətbuat xidmətindən verilən məlumata görə, AMEA-nın İqtisadiyyat İnstitutu ilə yanaşı, Azərbaycan Mərkəzi Bankı, Azərbaycan Dövlət İqtisad Universiteti, AMEA-nın Elmi İnnovasiya Mərkəzi, AMEA "Azərbaycan Milli Ensiklopediyası"nın Elmi Mərkəzi və s. qurumların nümayəndələrinin iştirak etdiyi tədbirdə Dünya Bankının Azərbaycanla bağlı hesabatı dinlənilib.**

"İqtisadi diversifikasiya və inkişaf" adlı məruzə ilə çıxış edən M. Prasad Dünya Bankının həyata keçirdiyi layihə haqqında məlumat verib. O bildirib ki, bütün Avropa və Mərkəzi Asiya ölkələrini əhatə edən layihə çərçivəsində təbii resurslarla zəngin və qeyri-zəngin ölkələr təhlil olunub. Aparılan təhlillər nəticəsində ölkənin orta gəlirli ölkədən yüksək gəlirli ölkəyə çevrilmək imkanları müəyyən olunub. M. Prasad layihə çərçivəsində Dünya Bankı tərəfindən aparılan, Azərbaycanın orta gəlirli ölkədən yüksək gəlirli ölkəyə çevrilməsinə imkan verəcək təhlillərin nəticələri ilə iştirakçıları tanış edib. Son 10 il ərzində Azərbaycan iqtisadiyyatında neft gəlirlərinin üstünlük təşkil etdiyini vurğulayan məruzəçi neft istehsalının ölkədə ümumdaxili məhsula verdiyi töhfə nəticəsində Azərbaycanın orta gəlirli ölkələr sırasına daxil olduğunu diqqətə çatdırıb. Prezidentin imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının insan kapitalının inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyən M. Prasad bu istiqamətdə əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün əlyetərliyinin əsas strateji xətt olaraq ön plana çəkildiyini bildirib. M. Prasad ölkədə bir sıra həlli vacib problemlərə də toxunub.

# 13-CÜ BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ




**İyunun 12-14-də Bakı Ekspo Mərkəzində 13-cü beynəlxalq nəqliyyat, tranzit və logistika ( "TransCaspian-2014" ) sərgisi keçirildi.**

Azərbaycan Nəqliyyat Nazirliyinin dəstəyi, AzVirt və Ştapler şirkətlərinin sponsorluğu ilə keçirilən sərgidə Azərbaycan, Belarus, Gürcüstan, Çin, Rusiya, Fransa, Çexiya, İsveçrə... şirkətləri öz ekspozisiyalarını nümayiş etdirdilər. Ziyarətçilər 3 gün davam edən sərgidə bütövlükdə 16 ölkədən 100-dən artıq şirkətin məhsulları, ən son texnoloji yeniliklərlə yaxından tanış olmaq imkanı qazandılar.







"TransCaspian" sərgisi mühüm nəqliyyat forumu olmaqla yanaşı, ölkəmizin nəqliyyat infrastukturunun inkişafına, tranzit yüklərin əlverişli coğrafi mövqedə yerləşən Azərbaycanın ərazisindən daşınması imkanlarının nümayiş etdirilməsinə və yük sahibləri üçün ən optimal daşıma variantlarının müəyyənləşdirilməsinə kömək göstərir.

"TransCaspian-2014" sərgisi yeni əməkdaşlıq əlaqələrinin qurulması, təcrübə mübadiləsinin aparılması, investisiya yatırımları üçün də çox əhəmiyyətli oldu. Sərginin verdiyi bu imkandan yararlananların uğurlarına uğur qatacaqları şübhəsizdir.

Sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün ayrılmış guşə də müxtəlif ölkələrdən gəlmiş mütəxəssislərin diqqət mərkəzində idi. Gəmiçiliyə həsr olunmuş guşənin qarşısında ayaq saxlayanların maraqlandıqları bütün suallara "AXDG" QSC-nin nümayəndələri ətraflı cavab verirdilər.

**Vaqif SƏTTAROV, "DƏNİZ"**

# Yeni metro stansiyaları tikilir

**Bakı Metropoliteni xətlərinin konseptual inkişaf sxeminə uyğun olaraq "Bənövşəyi xətt" çərçivəsində şərti olaraq "Avtovağzal" və "Memar Əcəmi-2" adlanan yeni stansiyaların tikintisinin bu ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.**

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətindən bildiriblər ki, "Bənövşəyi xətt"in davamı olaraq paytaxtın "Papanin"adlanan ərazisində və Heydər Əliyev adına İdman Kompleksinin yaxınlığında yeni stansiyaların tikintisinə başlanılıb.



Məlumatda, həmçinin bildirilir ki, "Dərnəgül" stansiyasından "Xətai" stansiyasınadək uzanan "Yaşıl xətt"in davamı olaraq isə bir sıra yeni stansiyalar inşa ediləcək. Bu stansiyalar Nobel prospekti boyunca uzanaraq, "Ağ şəhər" layihəsini və Neft Emalı Zavodunun qarşısındakı ərazini əhatə edəcək. "Yaşıl xətt"in sonuncu stansiyası isə şərti olaraq "Həzi Aslanov-2" adlandırılan stansiya olacaq. Daha sonra bu stansiyadan "Dərnəgül"stansiyasına yeni xəttin çəkilməsi planlaşdırılır.

# GƏNC NƏSLİN SAĞLAMLIĞINDA FİZİKİ TƏRBİYƏNİN ROLU







**İnsanların fiziki cəhətdən sağlam olması cəmiyyətin zəruri tələbidir. Əbəs deməyiblər ki, sağlam bədəndə sağlam ruh olar.**

Hələ ictimai icma dövründə - tərbiyənin son dərəcə məhdud və sadə olduğu vaxtlarda uşaqların fiziki inkişafina diqqət yetirilir, onlara ox atmaq, at çapmaq kimi vərdişlər aşılanırdı. Quldarlıq dövründə fiziki tərbiyə ilə bağlı işlər daha da genişləndirildi. Afinada 13-14 yaşına çatan uşaqları 2-3 illik idman (polestra) məktəbinə göndərirdilər. Burada ox atmaq, güləşmək, qaçmaq, tullanmaq və üzmək kimi 5 əsas bacarığa yiyələnirdilər. Filosof Platon uşaqların 12-16 yaşlarında belə məktəblərə getmələrini vacib sayırdı.

Feodalizm cəmiyyətində də fiziki tərbiyəyə xüsusi diqqət yetirilirdi. Öz övladlarını cəngavər görmək istəyənlər onların idmanın müxtəlif növləri ilə məşğul olmalarına çalışırdılar. Cəngavər tərbiyəsinin məzmununa yeddi əsas bacarıq (at çapmaq, üzmək, ox atmaq, qılınc oynatmaq, ov etmək, şahmat oynamaq və seir qoşub oxumağı bacarmaq ) daxil idi.

Qədim dövrlərdə fiziki tərbiyə hərbi hazırlıq, vətənin müdafiəsi ilə sıx bağlı olmuşdur. Elə buna görə bütün zamanlarda uşaqların hərbi-fiziki tərbiyəsi diqqət mərkəzində olmuşdur.

Müasir pedaqoqlar da fiziki tərbiyənin vacibliyini qeyd edirlər. Pedaqoji elmlər doktoru A. N. Abbasov yazır: "Fiziki tərbiyə tərbiyəçinin ( valideynin, müəllimin) rəhbərliyi altında uşağın (şagirdin) sağlamlığını möhkəmləndirmək, çevikliyini və gümrahlığını təmin etmək, onun fiziki qüvvəsini və keyfiyyətlərini məqsədyönlü və sistemli olaraq formalaşdırmaq, gənc nəsli fiziki və əqli əməyə, Vətənin müdafiəsinə hazırlamaq deməkdir."

Ölkəni, həqiqətən də fiziki cəhətdən sağlam, çevik, cəsur, iradəli, dözümlü, idman vərdişlərinə yiyələnmiş şəxslər daha yaxşı müdafiə edirlər. Lazım gələndə fəndlər işlətmək, çevikliklə vəziyyətdən çıxmaq, əlbəyaxa döyüşdə qalib gəlmək, üzməyi, tullanmağı, qaçmağı və sair bacarmaq, soyuğa, şaxtaya, əziyyətə dözmək çox vaxt döyüşün müqəddəratını həll edir.

Hərbi texnika nə qədər inkişaf etsə də, sadalanan keyfiyyətlərə həmişə ehtiyac duyulur.

Uşağın normal inkişafı üçün fiziki tərbiyə çox vacibdir. Odur ki, məktəbəqədər yaş dövründə əsas diqqət fiziki tərbiyəyə yönəldilir. Fransız maarifçisi Jan jak Russo (1712-1778) insanın yaş dövrünü 4 mərhələyə bölmüş və birinci mərhələdə əsasən, uşağın fiziki tərbiyəsinə fikir verməyi məsləhət görmüşdür.

Son illər ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafına böyük diqqət yetirilir. Dünya şöhrətli idmançılarımızın sayının artmasının başlıca səbəbini də bunda axtarmaq lazımdır. Vətənin layiqli müdafiəçilərinin - fiziki cəhətdən sağlam nəslin yetişdirilməsi isə bu işə ailədə və məktəbdə necə yanaşıldığından asılıdır. Fiziki tərbiyənin səmərəliliyini artırmaq üçün valideynlər uşaqları kiçik yaşlarından əməyə və fiziki hərəkətləri yerinə yetirməyə alışdırmalı, övladlarının müxtəlif idman oyunları ilə məşğul olmalarına fikir verməlidirlər. Bu işin uşaq bağçalarında da davam etdirilməsi vacibdir.

Hər il paytaxtda və regionlarda müasir tələblərə cavab verən idman qurğuları istifadəyə verilir və bu nəcib iş davam etdirilir. Bədən tərbiyəsi və idmanın daha yüksək sürətlə inkişafına nail olmaq üçün ümumtəhsil və texniki peşə məktəblərində, ali təhsil müəssisələrində yaradılmış bu gözəl şəraitdən səmərəli istifadə etmək lazımdır.

**Əjdər SADIQOV,**
***Azərbaycan Dövlət Dəniz Akademiyasının idman müəllimi***

# YENİ ATOM SUALTI QAYIĞI DƏNİZƏ BURAXILDI



**Rusiya Hərbi Dəniz donanmasının tərkibinə "Yasen" layihəsindən "Severodvinsk" adlı yeni atom sualtı qayığını daxil edib.**

ABŞ-la münasibətlərin kəskinləşdiyi dövrdə yeni güclü və ən müasir avadanlıqlarla təchiz edilmiş hərbi gəminin istismara verilməsi dünya KİV-lərinin də diqqətini cəlb edib. Bu məqsədlə təşkil olunan təntənəli mərasimdə Hərbi Dəniz Donanmasının baş komandanı, admiral Viktor Çirkov da iştirak edib. Hərbi gəmi güclü silah kompleksi, o cümlədən səsdən sürətli qanadlı raketlərlə təchiz olunub. Gəmi maksimum dərəcədə səssiz hərəkət edir və onun aşkar edilməsi olduqca çətindir.

**TURAL**

# I sinfə qəbul qaydaları dəyişdi



**Azərbaycanda orta məktəbin I sinfinə, ilk növbədə, məktəbin bilavasitə xidmət ərazisində yaşayan uşaqlar qəbul olunacaq.**

Təhsil Nazirliyindən verilən məlumata görə, bu, təhsil naziri Mikayıl Cabbarovun yeni imzaladığı "Uşaqların (şagirdlərin) ümumi təhsil müəssisələrinə qəbulu və yerdəyişməsi Qaydaları"nda öz əksini tapıb. Qaydalara əsasən, şagirdlərin I sinfə qəbulu məktəb direktorunun əmri ilə təşkil olunmuş komissiya tərəfindən həyata keçirilir. Komissiyanın tərkibinə təlim-tərbiyə işləri üzrə direktor müavini, təcrübəli ibtidai sinif müəllimləri, məktəbin psixoloqu, həkimi və valideyn özünüidarə orqanlarının (şuraların) nümayəndəsi daxil edilir.

Komissiyaya məktəbin direktoru rəhbərlik edir. Komissiya müvafiq dərs ilinin ikinci yarımilindən etibarən fəaliyyətə başlayır. Komissiyanın iş günləri elan formasında valideynlərin (digər qanuni nümayəndələrin) diqqətinə çatdırılır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2011-ci il tarixli, 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil Məktəbinin Nümunəvi Nizamnaməsi "nə uyğun olaraq, ümumtəhsil məktəbinin I sinfinə hər il sentyabrın 15-dək 6 yaşı tamam olan uşaqlar qəbul edilir. Ümumtəhsil məktəbinin direktoru yerli icra hakimiyyətinin nümayəndələri ilə birgə ərazi üzrə məktəb yaşına çatmış bütün uşaqların təhsilə cəlb olunması ilə bağlı zəruri tədbirlər həyata keçirir.

# Həyət evlərinin tikintisinə rəsmi razılıq alınmayacaq



Tikintisi üçün icazənin tələb olunmadığı yaşayış binaları ilə bağlı qanunvericiliyə yeni əlavə edilib. "Milli Məclisin bu günlərdə keçirilən növbədənkənar plenar iclasında müzakirə edilən "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əsasən, barəsində məlumatlandırma icraatı təqdim edilən yaşayış evlərinin ara məsafəsi divarın hündürlüyünün 0,3 hissəsini təşkil etməlidir. Məlumatlandırma icraatı mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırmalarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi zamanı tətbiq edilir. Belə binaların tikinti layihəsi üçün yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması nəzərdə tutulur. Onların tikintisinə icazənin verilməsi tələb olunmur.

Qeyd edək ki, binaların xarici divarlarının önündə ara məsafəsi sahələri nəzərdə tutulmalıdır. Həmin sahələrin üzərində yerüstü tikinti obyektlərinin inşasına yol verilmir. Qanun layihəsi səsverməyə qoyularaq qəbul edilib.

# Yerin altında nəhəng okean tapılıb

**Alimlər Yerin altında 700 kilometrə yaxın dərinlikdə Dünya okeanının həcmindən üç dəfə çox olan su ehtiyatı aşkar ediblər. Kəşf İllinoys ştatındakı (ABŞ) Şimal-Qərb Universitetinin tədqiqatçılarına məxsusdur**.

Alimlər ümid edirlər ki, bu, planetimizin uzaq keçmişi barədə təsəvvürlərə aydınlıq gətirməyə imkan verəcək və orada suyun necə yarandığını anlamağa kömək edəcək. "Bu məlumatlar təsdiq edir ki, Yerdəki su daxili mənbəyə malikdir"-ekspertlər qrupuna rəhbərlik edən Stiven Ceykobsen bildirib. Su ehtiyatlarından təyinatına görə istifadə etmək olmaz: su lazımi aqreqat vəziyyətdə deyil. Su Yerin səthi və onun nüvəsi arasında yerləşən rinqvudit adlı mineralın daxilindədir. Bu elementin kristal strukturunda süngər kimi suyu özünə hopduran nəsə bir maddə vardır.

"Yerin təkindəki suyun miqdarı okeanlarda olan suyun miqdarı qədər və ya hətta ondan bir qədər çoxdur. Bu, planetimizin quruluşu haqqında bizim təsəvvürü dəyişdirib"-Stiv Yakobsen qeyd edib. Ötən il Braun Universitetindən olan amerikalı alimlər belə bir fərziyyə irəli sürmüşdülər ki, su Yerə kosmosdan gəlib . "Məlumatlar sübut edir ki, karbon tərkibli daş meteoritlər -Yer və Ayda və ola bilər ki, bütün Günəş sistemindəki uçucu maddələrin ümumi mənbəyidir"-alimlər vurğulayıblar. Geologiya üzrə mütəxəssis və tədqiqatın müəllifi Alberto Saalın sözlərinə görə, son tədqiqatlarla müəyyən edilmişdi ki, Yerdəki suyun 98 faizi primitiv meteoritlərdən əmələ gəlir, yəni toqquşma zamanı Yer mayenin bir hissəsini Aya verir.

# ÜZƏN ŞƏHƏRLƏR SALINACAQ

**Əhalinin sürətlə artması, həmçinin quru yerlərin bir hissəsini su altında qoyacaq qlobal daşqınların yaradacağı təhlükə insanları yaşayış üçün alternativ məkanlarda məskunlaşmaq üzərində düşünməyə vadar edir. Kosmosa, başqa planetlərə köçməyə hələ çox var. Bəs dəniz və okeanlarda necə, yaşamaq olarmı?**

Əslində, Çində su üzərində ev tikmək ənənəsi qədim vaxtlardan mövcuddur. Belə ki, Sanduao su şəhəri nə vaxtsa... kasıblıq səbəbindən inşa edilib. Torpağa görə vergi ödəmək imkanı olmayan aztəminatlı ailələr öz yaşayış evlərini çayların və körfəzlərin ortasında tikməyə başlayıblar.

Sonra su üzərində indiyə kimi qalmış bütöv yaşayış məskənləri yaranıb. Oradakı bütün evlər ağac və ya bambukdan tikilib və elə həmin materiallardan olan pontonların (üzən körpü ) üzərində quraşdırılıb, evlərin üzməsinə şəraiti isə bir yerdə bağlanmış plastik və metal kanistrlər yaradır. Sanduao sakit limanda yerləşir, buna görə də evləri böyük dalğalardan mühafizə etmək lazım deyildir.

Deyirlər ki, bu yaşayış məntəqəsinin min ilə yaxın yaşı vardır. Kənd tədricən böyüyərək əsl böyük şəhərə çevrilib. Bu gün oranın öz polisi, poçt şöbəsi, çoxsaylı kafeləri, kiçik restoranları, dükanları və mağazaları vardır. Hətta şəhərlərin öz kodu da vardır. Sakinlərin əksəriyyəti balıqçılıq və dəniz məhsullarının yetişdirilməsi ilə məşğuldur. İndi Sanduao turistlərin diqqətini çəkən populyar yerlərdən biri hesab edilir.

Bəs əgər su üzərindəki evlər insana daha rahat şərait yaratmaq üçün inşa edilərsə və yüksək səviyyəli infrastrukturla təchiz olunarsa, onda necə? Çinin hakim dairələri bu vəzifənin icrasını "AT Design Office" arxitektura şirkətinə həvalə edib. Bu gün, demək olar ki, layihə kağız üzərində hazırdır.

Sahəsi 4 kvadratkilometrə çatacaq üzən adanın tikintisində əlli kilometr uzunluğu olan Honkonq- Makao- Çjuxa körpüsünün inşasında istifadə edilmiş texnologiyadan yararlanmaq planlaşdırılır. " Bu körpünün bir hissəsi 150 metrlik dəmir-beton qutu vasitəsilə suyun səthinə çıxan sualtı tuneldən ibarətdir"- arxitektor Slavomir Siska bildirib.

Çindəki üzən şəhər əvvəlcə zavodda yığma altıüzlü modullardan hazırlanacaq, sonra isə dənizlə təyinat yerinə göndəriləcək. Quş uçuşu hündürlüyündən bu cür adalar mozaik şəkildə yerləşən arı şanını xatırladacaq. Şəhər-adanın modulları öz aralarında sualtı tunellər və ya suüstü səkilərlə birləşəcək. Uzaq modullara qayıqlada gedəcəklər. Hər bir şəhər-ada ( çoxlu sayda bu cür yaşayış məskənləri inşa etmək planlaşdırılır) sualtı tunel şəbəkəsi vasitəsilə öz "qonşusu" və materiklə əlaqədə olacaq.

Səyahət gəmiləri və yaxtaları üçün dayanacaqlar, həmçinin yerli sakinlərin rahatlığı üçün bərələrdən istifadə nəzərdə tutulur. Şəhər-adanın mərkəzi hissəsindəki hündür yerlərdə parklar salınacaq. Aşağı sualtı yaruslarda otellər və əyləncə zonaları yerləşəcək. Hər şəhərdə ayrıca iki yaşıl zona olacaq. Onlarda biri suyun səthində, digəri isə suyun altında salınacaq. Suüstü yaşıl məkanlardan açıq havada idman məşğələləri və istirahət üçün istifadə olunacaq. Sualtı parklar qapalı şəhərlərdə ekoloji cəhətdən təmiz mikroiqlimin saxlanması üçün nəzərdə tutulur.

Ventilyasiya sistemindən xüsusi danışmağa dəyər. O, mərkəzləşdiriləcək. Havanı sualtı mərtəbələrə kompleksin mərkəzində yerləşən nəhəng boru vasitəsilə vurmaq planlaşdırılır.

Üzən şəhər özü-özünü tam təmin edə biləcək. Şaquli vəziyyətdə yerləşəcək bağlar və heyvandarlıq fermaları sakinləri qida məhsulları ilə təmin edəcək. Enerjini xüsusilə tullantıların ekoloji cəhətdən təmiz emal edilməsi prosesində almaq nəzərdə tutulur. Yəqin ki, özünü quru sahələrdə çox gözəl göstərən bioqaz reaktorlarından istifadə olunacaq. Qeyd edək ki, heyvandarlıq tullantılarının qaza, elektrik enerjisinə və istiliyə çevrilməsi Avropa ölkələri və Çinin özündə geniş yayılıb. Bu texnologiya özünü fermalarda tam doğruldub. Yeri gəlmişkən, enerjini okeanda, heç də az olmayan tullantılardan da almaq mümkündür.

Bu cür şəhər-adaların ən böyük üstünlüklərindən biri də ondan ibarətdir ki, orada buxarxana qazları olmayacaq. Enerjidən isə az istifadə ediləcək. Ekoloji cəhətdən təmiz üzən evdən həmçinin çoxfunksiyalı nəqliyyat vasitəsi kimi də istifadə etmək olar. Onların sahibləri heç bir narahatlıq hiss etmədən səyahət edə biləcəklər.

Çinlilər artıq növbəti ildə üzən şəhər konsepsiyasını həyata keçirmək niyyətindədirlər. İlk müasir üzən şəhər hazır olan kimi...

Kim bilir, bəlkə, bu, elə bəşəriyyətin gələcəyi deməkdir. Hər kəsin özü üçün iş, əyləncə tapa biləcəyi və təbii ki, öz fiziki və mənəvi ehtiyaclarını ödəyə biləcəyi dənizdə yaşıllığa bürünmüş üzən ada çoxları üçün maraqlı olar.

**F. VƏLİYEV**

## KÖNLÜ BALIQ İSTƏYƏNİN...

**Azərbaycanda balıq və digər su bioresurslarının ovu, forması və icazə verilmə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən balıq ovlama bileti əsasında həyata keçiriləcək.**

elmi tədqiqat, təhsil, maarifləndirmə və nəzarət məqsədi ilə də ovlana bilər. Bütün bu ovlar üzrə ayrıca kvota növləri tətbiq ediləcək. Layihəyə görə, nəzarət, idman və həvəskar ov istisna olmaqla, balıq və digər su



Milli Məclisdən Trend-ə verilən məlumata görə, bu, "Balıqçılıq haqqında" qanuna dəyişiklik edilməsi barədə" qanun layihəsində öz əksini tapıb. Hazırki qanunda balıqların və digər su heyvanlarının ov məqsədlərinin sayı artırılıb. Layihəyə görə, balıq və digər su bioresursları sənaye, həvəskar və idman ovu ilə yanaşı, akvakultura, bioresurslarının ovu ödənişlidir. Layihədə qeyd edilir ki, dövlət balıq və digər su bioresurslarının ov həcmi müəyyən edilərkən ekoloji, sosial, iqtisadi amillər, o cümlədən balıq məhsulunun istehsalı və satışı haqqında məlumatlar nəzərə alınacaq. Xatırladaq ki, qeyd edilən qanun layihəsi artıq Milli Məclisin müzakirəsinə tövsiyə edilib.



## BƏLƏDİYYƏLƏRƏ BALIQÇILIQ TƏSƏRRÜFATLARI İLƏ MƏŞĞUL OLMAĞA İCAZƏ VERİLƏCƏK

**Azərbaycanda balıq və digər su bioresursları dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.**

Milli Məclisdən verilən məlumata görə, bu, "Balıqçılıq haqqında" qanuna dəyişiklik edilməsi barədə layihədə öz əksini tapıb. Layihəyə görə, dövlət mülkiyyətində olan balıqçılıq su obyektlərində yaşayan balıq və digər su bioresursları Azərbaycan Respublikasına məxsusdur.

Bələdiyyə mülkiyyətində olan balıqçılıq su obyektlərində yaşayan balıq və digər su bioresursları bələdiyyə mülkiyyətində olmalıdır. Akvakultura təsərrüfatının yerləşdiyi balıqçılıq su obyektlərində əldə olunan balıq və digər su bioresursları onun mülkiyyətçisinə və ya icarəçiyə məxsusdur. Qeyd edək ki, hazırkı qanunvericiliyə görə, Azərbaycanda balıq ehtiyatları hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına məxsusdur. Sözügedən qanun layihəsi artıq Milli Məclisin müzakirəsinə tövsiyə edilib.



## BELƏ-BELƏ İŞLƏR

# Arzuya bax...

Bir həkim tanışım var. Bilmirəm həkimlərin ən böyük arzusu nə ola bilər, amma bu tanışımın bəlkə ən böyük arzusu budur ki, mənim də nə vaxtsa ona işim düşsün. Yəni əməlli-başlı azarlayım. Elə xəstələnim ki, cərrahiyyə əməliyyatsız keçinmək mümkün olmasın. O da iti cərrah bıçağını (insafən pis cərrah deyil) götürüb, ağrıyan yerimin orasından-burasından xeyli kəsib, dilinə calasın ki, dili yanımda uzun olsun... Allah, sən saxla!

Bir uşaqlıq tanışım var. Özünə görə adı-sanı, vəzifəsi, başqalarının yanında keçərli sözü...On illərdir həsrətindədir ki, nə vaxtsa qapısını döyüb xahiş-minnət edəm: "Bəlkə uşaqlarımdan birini yaxşı bir işə düzəldəsən". Gözləyə-gözləyə qalıb.

Bir imkanlı qohumum var. Allah başından töksün. Toyda-yasda mənə elə baxır, elə baxır... sanki yaxınlaşıb deməliyəm ki, əlim bir az aşağıdır. Bəlkə əlimi yuxarı qaldırasan.

Bir dostum var. Yüksək vəzifəyə keçməmişdən əvvəl məni ən azı ağıllı adam sayırdı. Çox şeyi məsləhətləşirdi. Vəzifəyə keçəndən sonra hamıya, o cümlədən mənə də ağıl verir. Nə deyirəm ki! Vəzifə, adamı ağıl dəryasına döndərirsə, Allah ağlını başından çıxarmasın.

Ədliyyə orqanlarında, daha doğrusu həbsxanada çalışan bir tanışımla rastlaşanda isə: "Mənə görə nə qulluq? Canla-başla hazıram",-deyir.

Mən də:

- Hələ həbsxanalıq bir iş görməmişəm,- deyə cavab verirəm...

Yaşım əllini keçib. İndi doğulduğum kəndə də qorxa-qorxa gedirəm. Qorxuram ki, mürdəşir İbrahim kişi ilə rastlaşım və o da: "Mənə görə nə qulluq? Qulluğunda hazıram",- deyə təkid etsin...

**Rasif TAHİROV**



*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

**Биржа** **Birja**

**EXCHANGE**

Регулярно функционирующий рынок товаров (сырьевых и продовольственных), продающихся стандартам или образцам, а также п), рынок ценных бумаг (акций, облигаций), валюты и золота.

Существуют товарные, фондовые (ценные бумаги) и валютные (иностранная валюта и золото) биржи. Товары на бирже продаются и покупаются по ценам, складывающимся в результате соотношения между спросом и предложением на эти товары на бирже. Продукция морского транспорта в ряде случаев также может покупаться и продаваться как биржевой товар на фрахтовой бирже.

Известностью пользуются Лондонская фрахтовая биржа и Нью-Йоркская фрахтовая биржа. На Лондонскую фрахтовую биржу допускаются для ведения дел только ее члены, главным образом брокерский аппарат Лондонского фрахтового рынка. Фактически биржа служит главным образом местом обмена информацией, зондажа рынка, оценки объема спроса и предложения тоннажа.

Müntəzəm fəaliyyət göstərən, standartlar və ya nümunələr üzrə satılan mallar (xammal və ərzaq malları), habelə qiymətli kağızlar (səhmlər, istiqrazlar), valyuta və qızıl bazarı.

Əmtəə, fond (qiymətli kağızlar) və valyuta (xarici valyuta və qızıl) birjaları mövcuddur. Birjada mallar tələb ilə təklif arasındakı nisbət nəticəsində formalaşan qiymətlər üzrə satılır və alınır. Bir sıra hallarda dəniz nəqliyyatı məhsulu da birja malı kimi fraxt birjasında alına və satıla bilər.

London və Nyu-York fraxt birjaları çox tanınmışdır. London fraxt birjasında işlərin aparılması yalnız birjanın üzvləri, başlıca olaraq London fraxt bazarının broker aparatı tərəfindən həyata keçirilir. Faktiki olaraq birja əsasən informasiya mübadiləsinin aparıldığı, bazarın əvvəlcədən öyrənildiyi, tələbat həcminin qiymətləndirildiyi və tonnajın təklif olunduğu yer kimi fəaliyyət göstərir.

**Боевое судно** **Döyüş gəmisi**

**FIGHTING SHIP**

Судно, используемое линейными конференциями для борьбы с аутсайдерами. Боевое судно ставится под погрузку одновременно с судном-аутсайдером и принимает груз к перевозке по более низким ставкам, лишая его тем самым возможности получить коммерческий груз. Убытки, понесенные при этом боевым судном, распределяются между членами линейной конференции.

Autsayderlərlə mübarizə aparmaq üçün xətti konfransların istifadə etdikləri gəmi. Döyüş gəmisi autsayder-gəmi ilə eyni vaxtda yüklənməyə qoyulur və daşımaq üçün yükü daha aşağı tarif dərəcələri ilə qəbul edir ki, bununla da autsayder-gəmini kommersiya yükündən məhrum edir. Döyüş gəmisinin bu zaman məruz qaldığı zərər xətti konfransın üzvləri arasında bölüşdürülür.

**Бой** **Sınma**

**BREAKAGE**

В практике морского страхования исходят из того, что бой перевозимых грузов происходит не из-за несчастных случаев, а в результате небрежного обращения с ними. Поэтому ответственность страховщика за бой обычно исключается из стандартных условий страхования по таким грузам, как стекло, фарфор, асбестовые листы и т.п. Как правило, включение риска боя в объем ответственности страховщика осуществляется по исключительно высоким ставкам.

Daşınma zamanı yüklərin sınması. Dəniz sığortası təcrübəsində ona əsaslanırlar ki, daşınan yüklərin sınması bədbəxt hadisələrdən deyil, onlarla etinasız davranma nəticəsində baş verir. Buna görə şüşə, çini qablar (farfor), azbest təbəqələr və s. yüklərin sığortalanmasının standart şərtlərindən sığortaçının sınma üçün məsuliyyəti adətən çıxarılır. Sığortaçının məsuliyyət həcminə sınma riskinin daxil edilməsi, bir qayda olaraq, son dərəcə yüksək dərəcələrlə həyata keçirilir.

**Бокс - палет** **Boks-palet**

**BOX PALLET**

Ящики различных размеров с цельными или сетчатыми стенками, жестким основанием, приспособленным для подъема вилочным погрузчиком. Применяется для погрузки мелких партий груза в контейнер.

Bütöv və ya torşəkili divarlara malik, bərk özüllü, çəngəlli yükləyici ilə qaldırmaq üçün uyğunlaşdırılmış müxtəlif ölçülü yeşiklər. Kiçik partiyalı yüklərin konteynerə yüklədilməsi üçün tətbiq edilir.

**Бондовый груз** **Bond yükü**

**BOUNDED CARGO**

Импортируемый товар, задержанный на таможенном складе до уплаты таможенной пошлины.

Gömrük rüsumu ödənilənə kimi gömrük anbarında saxlanılmış idxal edilən mal.

**Бондовый склад** **Bond anbarı**

**BOUNDED WAREHOUSE**

Склад, приписанный к определенной таможне, на котором можно хранить импортные товары, не оплачивая пошлин. Последние уплачиваются лишь в случае отправки товаров с бондового склада внутрь страны. Хранение товаров на бондовом складе ограничено определенными сроками, по истечении которых товары обращаются в доход государства.

Müəyyən gömrük strukturuna təhkim edilmiş anbar, burada idxal edilən malları rüsum ödəmədən saxlamaq mümkündür. Rüsumlar yalnız malların bond anbarından ölkə daxilinə göndərildiyi halda ödənilir. Malların bond anbarında saxlanması müəyyən müddətlə məhdudlaşdırılmışdır, qoyulmuş vaxt başa çatdıqda mallar dövlətin gəlirinə çevrilir.

**Бордсы** **Bordslar**

**BOARDS**

Бруски пилолеса, толщиной меньше чем 2 дюйма, при любой ширине.

Qalınlığı 2 düyümdən az, istənilən endə olan mişarlanmış ağac tirlər.

**Бракераж** **Brakeraj**

**CHECKING OF QUALITY OF GOODS**

Проверка соответствия качества товара, его оформления и упаковки условиям сделки или установленным стандартам. Бракераж осуществляется специальными государственными организациями или так называемыми присяжными бракерами. В странах СНГ бракераж осуществляется государственными инспекциями по качеству товаров.

Malın keyfiyyətinin, sənədləşdirilmənin və qablaşdırılmanın müqavilə şərtlərinə və ya müəyyən edilmiş standartlara uyğun olub-olmamasının yoxlanılması. Brakerajı dövlətin xüsusi orqanları və ya and brokerləri adlanan brokerlər həyata keçirirlər. MDB ölkələrində bu işi malların keyfiyyəti üzrə dövlət müfəttişlikləri yerinə yetirir.

**Брокер** **Broker**

**BROKER**

Посредник, который содействует совершению сделок (коммерческих, кредитных, страховых, фрахтовых и т.д.) между заинтересованными сторонами (клиентами) по их поручению и за их счет. Фрахтовыеброкеры выступают в качестве посредников между судовладельцами и фрахтователями при заключении договора фрахтования. В зависимости от того, чьи интересы он представляет, судовладельца либо фрахтователя, брокер действует по одноразовому полномочию своего доверителя и подписывает договор от его имени, указывая при этом, что выступает в качестве брокера.

Брокер должен действовать строго в соответствии с полученными полномочиями и защищать интересы лишь одной стороны в договоре.

Maraqlı tərəflər (müştərilər) arasında onların tapşırığı ilə onların hesabına müqavilələrin bağlanılmasına (kommersiya, kredit, sığorta, fraxtetmə və s.) kömək edən vasitəçi. Fraxt brokerləri fraxtetmə müqaviləsi bağlanarkən gəmi sahibləri ilə fraxtedənlər arasında vasitəçi kimi çıxış edirlər. Gəmi sahibinin və ya fraxtedənin marağını təmsil etməsindən asılı olmayaraq, broker onu vəkil edənin verdiyi birdəfəlik səlahiyyət üzrə hərəkət edir, bu halda, broker kimi çıxış etdiyini qeyd etməklə, onun adından müqavilə imzalayır.

Broker ciddi surətdə verilən səlahiyyətə müvafiq olaraq fəaliyyət göstərməli və müqavilədə yalnız bir tərəfin maraqlarını müdafiə etməlidir.

**Брокерская комиссия** **Broker komisyonu**

**BRKKERAGE**

Вознаграждение, выплачиваемое судовладельцем брокеру за подыскание груза, посредничество в переговорах о заключении сделки, содействие в ее исполнении и урегулировании возникающих разногласий. Размер брокерской комиссии оговаривается в чартерах. В некоторых случаях размер брокерской комиссии может достигать 2,5 % от суммы фрахта, мертвого фрахта и демереджа и выплачивается, как правило, после их получения судовладельцем. В случае если сделка не состоялась, брокер не имеет право претендовать на комиссию вне зависимости от своих затрат.

Yük axtarılmasına, sövdələşmə danışıqlarında vasitəçiliyə, sövdələşmənin icrasında və yaranan fikir ayrılıqlarının tənzimlənməsində köməyə görə gəmi sahibinin brokerə ödədiyi mükafat.

Broker komisyonunun miqdarı çarterlərdə qeyd edilir. Bəzi hallarda broker komisyonunun miqdarı fraxt, istifadəsiz fraxt və demerec məbləğinin 2,5 %-i qədər ola bilər. Komisyon, bir qayda olaraq, gəmi sahibi tərəfindən adıçəkilən məbləğlər alındıqdan sonra ödənilir. Sövdələşmə baş tutmadıqda, çəkdiyi xərclərdən asılı olmayaraq, brokerin komisyona görə iddia irəli sürmək hüququ yoxdur.

*(Davamı var)*

## 58 SƏRNİŞİN XİLAS EDİLSƏ DƏ...

Malayziyanın Selenqor ştatının qərb sahili yaxınlığında, Malak körfəzində gəmi qəzaya uğramışdır. Nəticədə 3 nəfər həlak olmuş, 37 nəfər itkin düşmüşdür. Bu barədə "Star" qəzeti xəbər verir.

Bundan əvvəl 61 nəfərin itkin düşdüyü bildirilirdi.



Malayziyanın Baş nazirinin departamenti yanında nazir Şahidan Qasımın dediyinə görə, 58 sərnişini xilas etmək mümkün olmuşdur. Gəmi qonşu İndoneziyadan 97 qanunsuz mühacir aparırdı.

Ş. Qasım qeyd etmişdir ki, gəmi Bantinq şəhərinin təxminən 3 kilometrliyində batmışdır. Qəzanın səbəbi araşdırılır. Hadisə yerində axtarış-xilasetmə əməliyyatları bir neçə gün davam etdirilib.

## MÜHACİRLƏRİN XİLASI ÜÇÜN YARDIM İSTƏYİR

İtaliyanın daxili işlər naziri Ancelino Alfanonun dediyinə görə, Roma Avropa İttifaqından yardım almayacağı təqdirdə hərbi dəniz donanmasının Aralıq dənizində qanunsuz mühacirlərin xilası üzrə əməliyyatlar dayandırıla bilər. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Nazir İtaliya donanmasının dənizdən xilas etdiyi miqrantların gətirildiyi Siciliyanın Potsallo limanında çıxış etmişdir. O demişdir ki, dənizdə adamlar həlak olarsa, İtaliya buna biganə qalmayacaq. Lakin Liviya sahilinin patrulu dayandırılacaq.



Nazirin bu bəyanatından sonra göyərtəsində 356 mühacir olan Küveytə məxsus gəmi Siciliyaya gəlmişdir. Miqrantlar arasında Suriya, Liviya, Misir, Somali və Mərakeş vətəndaşları olub. Suriya mühacirlərindən biri həlak olmuşdur.

## YARIZARAFAT, YARIGERÇƏK

- Yadıma düşmür. Mən bilən aşıma heç vaxt pis adam tökməmişəm axı...
- Yaxşı ki, ( Bunun nəyi yaxşıdır?) bəziləri Qarabağın harada olduğunu bilmir. Yoxsa Qarabağda vuruşmağımı da öz adına çıxararlar.
- Görəsən niyə bəziləri özlərini lap "Tarix-Nadir"i bitirmiş adam kimi aparır?
- Sizi deyə bilmərəm, mən qocalığım üçün kalan... təəssüf yığmışam.
- Özlərini vacib adamlar kimi aparanlar vacib bir iş görsəydilər, heç bir problemimiz olmazdı.
- Söhbətinin əvvəli də, axırı da yalan olanın görəsən söhbətinin ortasında bircə düz sözü olur?
- Xırda adamlar heç xırda işləri də görməyə qadir olmurlar.
- Dəyərsiz əşya nə vaxtsa dəyərli ola bilər. Dəyərsiz adam isə həmişə dəyərsizdir.
- Mənim yadıma düşmür: axırıncı dəfə yalançıların evi nə vaxt yanıb?
- Hətta ayağı olmayanlar da yalandan qaçmalıdır.
- Yatmayanda bəzi şeylərə açıq gözlə baxmaq belə çətindir?
- Əyri nə qədər desən, oturuq. Bəs düz danışmaq niyə yadımızdan çıxır?
- Qadınların kişilərin ağlına vurulduğuna inanmaq çətindir. O qədər ağıllı kişiləri hardan tapasan?
- İşləməyi bacarmayanlar bəhanə uydurmağı yaxşı bacarırlar.
- Ağıllı qadınla yaşamaq iki ömür yaşamaq deməkdir.
- Günahlarını görmürlərsə, başqalarının boynuna niyə tökürlər?
- Göstərməyə heç nə olmadığı üçün hamı özünü məşğul kimi göstərir?
- Qadınlar kişiləri təmiz, pak görmək istədikləri üçün bağışlayırlar?
- Düz danışın. Ən pis halda da daha pis vəziyyətə düşməmək üçün düz danışın.
- Babalarımızdan çox biliriksə, səhvlərimiz niyə azalmır?
- Kiməsə elə gəlirsə ki, yalnız dilə güc verməklə işləri yağ kimi gedəcək, yanılır.
- Bəzən mənə elə gəlir ki, adamları tanımasam, daha yaxşıdır. Tanıyanda istər-istəməz onlardan uzaq qaçmaq istəyirəm. Bu yaşımda çox qaçmaq səhhətimə ziyandır.
- İgid basdığını kəsməz? Özlərini igid sayanların kəsdikləri nədir bəs?
- Bəziləri çörəyi deyəsən heç... qulaqları ilə də yemirlər axı.
- Görəsən, hər Seyid Əhmədə neçə ilan düşür?
- Allahım, olmadığı üçün qabağıma mərd çıxmır?
- Şər atmasan, xeyir gəlmir?
- İyrənsən də, tükü-tükdən seçmək lazımdır.
- Bəzi adamları tanımağa nə var? Ağızlarını açıb birinci sözün birinci hərfini deyən kimi, kimlikləri bəlli olur.
- Yalan maqnit kimidir. Dartıb təzə yalanlar gətirir.
- Allahım, məsləhət sənindir. Kim nə istədi, verəcəksənsə, yaxşı adamlara da mütləq səbr ver.
- Dərinlik baxımından mənə qazılan axırıncı quyudan, neft demirəm, ən azı su çıxmalıydı.
- Hamı özünü yaxşı adam kimi qələmə verəndən qələm də gözümdən düşüb.
- Adamların yaxşı-pisini ayıra bilməyən tükü-tükdən necə seçər?
- Mən heç kəsin yeyib-içməsinin əleyhinə deyiləm. Amma yeyib-içənlərin ən çox, elə yeyib-içən dostları olur.
- Vallah, dilimizi bəlkə hamıdan çox sevirəm. Amma mənə elə gəlir ki, yaxşı adamlara yaxşı işlərinə görə arabir heç olmasa "molodets" düşür.
- İstənilən yerdə Leyla da olsun, Yunus da. Amma leylayunuslar olmasa, yaxşıdır.

*Rasif TAHİROV*



## Su probleminə son qoyula bilər

**ABŞ-ın Texas ştatında yerləşən Rice Universitetində nano texnologiyalar üzərində çalışan türk alimi Şehmus Özden susuzluq probleminin həllinə yol açan bir kəşfə imza atıb.**

Onun Afrikada Namibiya səhrasında yaşayan stenocara adlı böcəyi örnək alaraq təkmilləşdirdiyi sutoplama üsulu səhra və quraq yerlərdə içməli su probleminə potensial çözüm sayılır.



Material və nano mühəndisliyi bölümündə doktorluq dissertasiyası üzərində çalışan Şehmus Özden və rəhbərlik etdiyi qrup su müşkülünü həll etmək üçün nano texnologiyadan yararlanaraq, önəmli bir kəşfi gerçəkləşdirib.

Ş.Özden "Anadolu"agentliyinə müsahibəsində kəşfini belə anladıb: "Təbiəti öyrənərkən, heç bir enerjiyə ehtiyac duymadan içməli su problemini çözən varlıqlara rast gələ bilərik. Afrikanın Namibiya səhrasında yaşayan "stenocara" adlı böcək başı aşağıya doğru, arxası və qanad hissəsi yuxarıya yönəlmiş şəkildə 45 dərəcə bucaq altında küləyə qarşı durarkən, havadakı nəmdə olan su molekullarını toplayır. Biz də bu böcəyin sutoplama mexanizminə bənzər sistem düşünüb hazırladıq. Bu kəşf içməli su probleminə potensial çözüm sayılır.

**TƏRANƏ**

## Xərçəngi xəbər verən əlamətlər

Xərçəngdən qorunmaq və sağlam həyat tərzi üçün bədəndə meydana gələn ən xırda dəyişikliklərə belə diqqət yetirmək lazımdır.

Xərçəngə səbəb ola biləcək əlamətlər hansılardır?

### Qarında şişkinlik

Əgər qarnınızda şişkinlik varsa və bu hal bir həftədən çox davam edirsə, mütləq həkimə müraciət edin. Bu əlamət yumurtalıq xərçənginin ilkin, bəzən isə yeganə əlaməti ola bilər. Qarındakı şişkinlik ən yüksək ölüm riski olan bağırsaq xərçənginin də əlamətlərindən sayılır.

### Yeməkdən sonra həzm problemi

Az yeməkdən sonra belə toxluq hiss etmək yumurtalıq, mədəaltı vəz və ya mədə xərçənginin əlaməti ola bilər. Mədəaltı vəz xərçəngi çətin müalicə edilən xəstəlikdir və ən erkən mərhələdə aşkarlanması vacibdir. Bu xərçəng növünün çox rast gəlinən əlamətləri iştahanın itməsi, çəkinin sürətlə azalması, gözlərin və ya dərinin saralması, solğunluq, sürüşkən nəcisdir.

### Ayaqyoluna tez-tez getmək

Tez-tez tualetə getmək istəyinə baxmayaraq, sidiyə çıxa bilməmək, əksər hallarda sidik kisəsi xərçənginin əlaməti sayılır. Bu xəstəlik adətən orta yaşı keçən kişilərdə müşahidə edilir. Bu zaman onlarda sidiyin rəngi sarı və tünd qırmızı olur. Bu əlamət yumurtalıq xərçəngi zamanı da müşahidə oluna bilər.

### Süd vəzisində hiss edilən şişkinlik

Süd vəzilərində əllə hiss edilən şişkinlik bədənin bu hissəsində müşahidə edilən xərçəngin ən əsas əlamətlərindən biridir. Süd vəzisində şişkinlik, dəridə qızartı, rəng dəyişikliyi varsa, mütləq həkim nəzarətindən keçməlisiniz.

### Sürətlə arıqlama

Çəkinin sürətlə azalması xərçəngin xəbərçisi ola bilər. Səbəbi açıqlanmayan arıqlama əsasən mədə, mədəaltı vəz, ağciyər, böyrək xərçəngində müşahidə edilir. Bu zaman insan nə qədər yaxşı qidalansa da çəki azalır. Bununla yanaşı, ürək bulanması, qusma və halsızlıq da müşahidə oluna bilər.

### Səsin tutulması

Çox zaman səsin tutulması soyuqlama, qrip, allergiya kimi xəstəliklərin əlaməti hesab edilir. Amma bu hal uzun müddət davam edirsə, diqqətli olun. Xüsusilə siqaret çəkən şəxslər. Bu zaman həkimə müraciət etmək qırtlaq və ağciyər xərçənginin erkən müəyyən edilməsinə kömək edə bilər.

Allah sizi qorusun!



## "DƏNİZ"İN GÜLÜŞ PAYI

Bir xanım balıqçıya ərə gedən rəfiqəsinə deyir:

- Yəqin hər gün səhər kürü, günorta da balıq yeyirsən. Bəs axşamlar?

Rəfiqəsi gülə-gülə:

- Sənin saydıqlarını yeyəndən sonra axşamlar iştaham olmur.

***

- Qonşun oruc tutur?
- İnanmıram tutsun.
- Niyə?
- Məgər yalan danışmaq orucu batil eləmir?!

***

- Doğrudan evinizdə söz-söhbət olmur?
- Yox.
- Onda yəqin ərinlə eyni seriallara baxırsınız.

***

- Hər şeyin təzəsi fikrinə necə baxırsan?
- Yaxşı baxıram.
- Onda təzədən mənə borc verə bilməzsən?!

***

- Yaxşı adam olmağa ən çox nə mane olur?
- Yaxşı adam olmamaq.

***

- Bilirsən, arxanca nə qədər adam danışır?
- Nə deyirsən, mən də qoşulum onlara?

***

- Filankəsin gönü çox qalındır.
- Demək istəyirsən ki, gönü də heç nəyə yaramır?

*Rasif TAHİROV*

BAŞ REDAKTOR
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
Bakı şəhəri,
B. Ağayev küçəsi, 117
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
redaktor müavini
(050) 341-26-40

Qəzetin təsisçisi
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 105